# Azərbaycanın nümunəvi evsahibliyi













## COP29-un indoneziyalı iştirakçısı: "Biz aqroekologiya layihələri istiqamətində təbliğatımızı həyata keçiririk"

**"Mən İndoneziyada yerləşən Seruni Milli Demokrat Qadın Təşkilatını təmsil edirəm. Biz təşkilatda bütün - yoxsul, tələbə qadınlara əsaslanaraq bu təşkilatı yaratmışıq. Təşkilatımız gender bərabərliyi, qadınların torpaq və təbii sərvətlər üzərində nəzarəti, eləcə də iqlim ədaləti məsələsi üzərində işləyir. COP29 platforması vasitəsilə biz insanların rəhbərlik etdiyi aqroekologiya layihələri istiqamətində geniş ictimaiyyətə təbliğatımızı həyata keçiririk".**



Bunu AZƏRTAC-a açıqlaması zamanı COP29-un indoneziyalı iştirakçısı, Seruni Milli Demokrat Qadın Təşkilatının rəhbəri Triana Kurnia Wardani deyib.

"Biz istərdik ki, qlobal ölkələr səsimizi eşitsin və kənd təsərrüfatı təcrübələrimizi nəzərə alsın. Bunlar ətraf mühiti yüngülləşdirmək, bərpa etmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün bizə təsir edir. Biz COP29-dakı platformamızdan yararlanaraq kampaniyamızı və digər yerli təşkilatlarla əlaqəmizi maksimuma çatdırmaq, bilik bacarıqlarımızı mübadilə etmək, həmçinin təbliğat aparmaq üçün istifadə edirik ki, ölkəmizdə yerli hərəkatımızı da gücləndirə bilək", - deyə Triana Kurnia Wardani əlavə edib.

## COP29-un iştirakçısı: "İnkişaf etmiş ölkələr zəif və ya inkişaf etməkdə olan ölkələrə kömək etməlidirlər"

**"Mən əslən hindistanlıyam, amma Fransada yaşayıram. IEEE-nin (Institute of Electrical and Electronics Engineers) gənc mütəxəssislərini təmsil edirəm. Biz 160-dan çox ölkədə fəaliyyət göstəririk və 250 mindən çox gənci təmsil edirik. Müxtəlif texnoloji sektorlarda, elektrik, elektronika, bir sözlə, bütün texnoloji sahədə işləyirik".**



Bu barədə açıqlamasında COP29-un iştirakçısı Sneha Satish Hegde deyib.

O qeyd edib ki, gənclərlə əməkdaşlıq etmək, onları iqlimə cəlb etmək çox vacibdir. İqlim problemləri üçün mütləq maliyyə lazımdır.

Onun sözlərinə görə, inkişaf etmiş ölkələr zəif inkişaf etmiş ölkələrə və ya inkişaf etməkdə olan ölkələrə kömək etməlidirlər. İnkişaf etmiş ölkələr üçün bu mübarizə bəlkə də 20-50 il davam edir, hazırda inkişaf etməkdə olan ölkələr isə yeni başlayıblar. Onlar başlanğıc mərhələsindədirlər.

"Bu, mənim iştirak etdiyim ilk COP tədbiridir. Dubayda təşkil olunan COP28 haqqında da məlumatlıyam. Düşünürəm ki, bu miqyasda tədbir keçirmək çox çətindir. Mən gənclərin burada könüllü olaraq çalışdığını görürəm. Hər şey çox yaxşı təşkil olunub. Azərbaycan COP29-un uğurlu keçməsi üçün kifayət qədər səy göstərir. Hər kəs burada belə gözəl tədbirin təşkili üçün böyük iş görüb", - deyə Sneha Satish Hegde əlavə edib.

## Madaqaskarlı iştirakçı: "COP29 qlobal ekoloji problemlərin həlli üçün çox vacib tədbirdir"

**"Bu, Azərbaycana ilk səfərimdir və ikinci dəfədir ki, COP konfransında iştirak edirəm. Tədbirin təşkilatçılığı heyranedici səviyyədədir. Burada hər şey son dərəcə rahatdır, heç bir qarışıqlıq yaşanmır. Tədbir yüksək səviyyədə təşkil edilib".**



Bu sözləri COP29 çərçivəsində ölkəmizə gələn madaqaskarlı iştirakçı Mohajy Karine Vognimanorosolo müsahibəsində söyləyib.

BMT layihəsi üzərində çalışdığını bildirən M.K.Vognimanorosolo rəhbərlik etdiyi layihənin mahiyyətinə toxunub: "Üzərində işlədiyim layihə hökumət layihəsi olub, Dünya Bankı tərəfindən maliyyələşdirilir. COP29 çərçivəsində burada iştirak etməkdən böyük məmnunluq duyuram. Tədbirdə yönləndirici işarələr və məlumatlandırma xidmətləri çox yaxşı təşkil edilib. Hər şey yüksək peşəkarlıqla həyata keçirilib və əvvəlki təcrübəmə əsasən deyə bilərəm ki, bu dəfə təşkilatçılıq daha da təkmilləşdirilmiş səviyyədədir. Bir sözlə, COP29 beynəlxalq əməkdaşlıqda və qlobal ekoloji problemlərin həllində çox vacib tədbirdir".

## Uqandanın "Rething" təşkilatının baş icraçı direktoru: "İqlim dəyişmələrinə qarşı mübarizədə maliyyə olduqca vacibdir"

**COP29-da iştirak etməyimizin məqsədi gənclərin iqlimlə bağlı maliyyə dəstəyi almasıdır. Bundan əlavə, istərdik ki, gənclərə iqlim dəyişmələrinə qarşı mübarizədə daha böyük şərait yaradılsın, onlar təkcə ekofəal kimi fəaliyyətlə kifayətlənməsinlər.**



Bunu Uqandanın "Rething" iqlim dəyişmələrinə qarşı mübarizə təşəbbüsünün baş icraçı direktoru David Luganda deyib.

O qeyd edib ki, iqlim dəyişmələrinə qarşı mübarizədə maliyyə olduqca vacibdir. "Biz, həmçinin birgə əməkdaşlığı və gənclər təşkilatları ilə tərəfdaşlığı da qeyd etməliyik. COP29-da danışıqlar aparılmalı, razılıqlar əldə olunmalıdır. Deyə bilərəm ki, burada çox sayda imkanlar mövcuddur. Hansılar ki, bizə yeni tərəfdaşlıqlar qurmağa imkan verir", - deyə o əlavə edib.

## Meksika nümayəndəsi: "Azərbaycan yüksəksəviyyəli ev sahibidir, təşkilatçılıq əladır"

**"Meksika karbon emissiyalarını azaltmaq və iqlim dəyişikliyinin mənfi təsirlərini yumşaltmaq üçün bir sıra tədbirlər həyata keçirir. Ölkə yenilənmə enerjisi şəbəkəsini artırmağa çalışır".**



Bu sözləri açıqlamasında ICC Beynəlxalq Ticarət Palatasının Meksika ofisindən gələn müşahidəçi Erik Hernandes Qalleqo deyib. O qeyd edib ki, Azərbaycan yüksəksəviyyəli ev sahibidir, təşkilatçılıq əladır.

"Azərbaycan və ya hər hansı digər neft və qaz ölkəsi iqlim dəyişikliyinə qarşı mübarizədə daha çox iş görə bilir. Meksikada problem onda idi ki, keçmiş prezidentin fəaliyyəti dövründə təmiz enerjidən istifadənin artması dayandırılmışdı, çünki o, bərpaolunan enerji əvəzinə daha çox neft və qaz istəyirdi".

Erik Hernandes Qalleqo qeyd edib ki, Meksikanın yeni, ilk qadın prezidenti bərpaolunan enerjiyə keçid prosesində yeni texnologiyaların tətbiqinə önəm verir: "Yerli icmalar da daxil olmaqla iqlim dəyişikliyinin azaldılması və uyğunlaşmasına kömək etmək üçün bütün icmaları bu prosesə cəlb edir".

## Emilie BEAUCHAMP: "İqlim böhranının həlli üçün maliyyə sahəsində çox iddialı nəticə əldə etməliyik"

**"COP29-da diqqətim iqlimə uyğunlaşma üzərindədir və mən maliyyə danışıqlarını izləyirəm. Burada vacib olan məqam yeni kollektiv və kəmiyyətlə ölçülə bilən məqsəd üzrə yekun qərarın bir hissəsi kimi uyğunlaşmanın aydın şəkildə tanınmasına əmin olmaqdır".**



Bu sözləri müsahibəsində Beynəlxalq Davamlı İnkişaf İnstitutunun sübut, monitorinq, qiymətləndirmə və öyrənmə üzrə aparıcı işçisi Emilie Beauchamp deyib.

O vurğulayıb ki, məqsəd təkcə iqlimə uyğunlaşma üçün nə qədər maliyyə vəsaitinin olması ilə bağlı deyil, həm də bu vəsaitin ən həssas təbəqələr arasında necə əldə edilməsi və bölüşdürülməsidir.

"Dünyanın iqlim böhranının həllində irəliləyişini istəyiriksə, maliyyə sahəsində çox iddialı nəticə əldə etməliyik", - deyə o bildirib.

## Pakistanlı təmsilçi: "COP29-da könüllülər möhtəşəm iş ortaya qoyur"



Bu sözləri açıqlamasında COP29-da Pakistandan olan təmsilçi Aymen Rafiq Abbasi deyib. O həmçinin nəqliyyat sisteminin də çox yaxşı qurulduğunu qeyd edib: "Azərbaycan tədbiri çox gözəl təşkil edib. Hər şey əlçatandır".

Pakistanlı təmsilçi daha çox iqlim və gender məsələləri ilə əlaqədar COP29-da iştirak etdiyini bildirib. Onun sözlərinə görə, ölkəsi həmçinin konfransın karbon bazarları hissəsi ilə maraqlanır.

## Qabriyel LİLJENSTROM: "Biz iqlim böhranının ortasındayıq"

**"COP29 həqiqətən də çox vacib platformadır. Belə tədbirlərə indiki dövrdə hər zamankından daha çox ehtiyac var. Biz iqlim böhranının ortasındayıq, ona görə də dünya bir araya gəlməli və iddialı məqsədlər uğrunda birgə mübarizə aparmalıdır".**



Bu fikirləri açıqlamasında İsveçin "Qlobal Ekumenizm Təşəbbüsü"nün üzvü Qabriyel Liljenstrom bildirib.

O qeyd edib ki, COP29 konfransından əsas gözləntisi iqlim maliyyələşməsi ilə bağlı effektiv həll yollarının tapılmasıdır. "İqlim dəyişikliyinə uyğunlaşma prosesində beynəlxalq əməkdaşlıq və maliyyə dəstəyinin əhəmiyyəti xüsusi vurğulanmalıdır", - deyə o əlavə edib.

## Fatoumata DJİRE: "Azərbaycanın COP-a evsahibliyi etməsi hər ölkənin qazana biləcəyi nailiyyət deyil"

**"Azərbaycana və Bakı Təşəbbüs Qrupuna (BTQ) dəvətə görə öz təşəkkürümü bildirirəm. COP29 təşkilatçılıq baxımından yüksək səviyyədədir. BTQ COP29 çərçivəsində bizə böyük dəstək oldu".**



Bu sözləri müstəmləkəçilikdən əziyyət çəkən Malinin İnkişaf və Ağacların Qorunması və Bərpası Naminə Təşkilatının (ASRAD) meneceri Fatoumata Djire söyləyib.

Onun sözlərinə görə, Azərbaycanın COP29 kimi böyük tədbirə evsahibliyi etməsi təqdirəlayiqdir. Bu, hər bir ölkənin əldə edəcəyi nailiyyət deyil.

Fatoumata Djire vurğulayıb ki, dünyada insan haqlarının pozulması, iqlim dəyişmələri, neokolonializm kimi məsələlərlə daha çox iş görülməlidir.







COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi









## *Pakistanlı iqlim fəalı:* "COP29 iqlim dəyişikliyi ilə mübarizədə gənc nəslin fəallığına təkan verir"

**"İqlim dəyişikliyi məsələlərinin daha geniş yerli icmalar tərəfindən idarə edilməsi vacibdir. COP29-da iqlim siyasətinin hazırlanmasında yerli icmaların iştirakının artırılması əsas gözləntimdir. İqlim dəyişikliyinin ağır təsirlərini birbaşa yaşayan insanlar məhz yerli icmalardır. Təəssüf ki, bu icmalar qərar qəbuletmə proseslərində tez-tez nəzərə alınmır və kənarda qalırlar".**



Bu fikirləri COP29 çərçivəsində ölkəmizə gələn Pakistanın şimalında yerləşən "Globalist" icmasından yerli iqlim fəalı və Dağ və Buzlaq Mühafizə təşkilatçısı Didar Ali AZƏRTAC-a açıqlamasında söyləyib.

O həmçinin "İtki, Zərər və Ziyan Fondu"nun (iqlim maliyyəsi) yerli icmalara birbaşa çatdırılmasının əhəmiyyətini qeyd edib. D.Ali bu fonddan istifadənin effektivliyini təmin etmək üçün beynəlxalq tədbirlərdə, o cümlədən COP29-da ölkələrin öhdəliklərinin yalnız formal olaraq qəbul edilməsi ilə kifayətlənməməsinin vacibliyini vurğulayıb: "Bu öhdəliklər çox zaman konkret tədbirlərlə nəticələnmir. Yerli icmalar üçün fəal və nəticəyönümlü addımlar atılması olduqca vacibdir ki, iqlim dəyişikliyi ilə mübarizə real şəkildə həyata keçirilə bilsin".

İqlim fəalı COP29-un yüksək səviyyədə təşkilini xüsusi vurğulayaraq, tədbir zamanı könüllülərin fəaliyyətini diqqətəlayiq hesab edib: "Şəhərdəki könüllülər bizə metro stansiyalarından tutmuş, mehmanxanalara və küçələrə qədər hər yerdə kömək edirlər. Bu cür diqqətli təşkilati işlər tədbirin müvəffəqiyyətinə böyük töhfə verir".

Didar Ali yerli gənclərin səsini duyurmağa yönəlmiş fəaliyyətlərini də əhəmiyyətli hesab edib, COP29-un gənc nəsil üçün bir platforma yaradaraq onların iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki fəallığına təkan verdiyini söyləyib.

## Nigeriyalı redaktor mənfi tendensiyaların aradan qaldırılmasında COP29-un rolundan danışıb

**"Ölkəmizin təbii sərvətlərlə zəngin olması bizə böyük problemlər yaradır. Məsələn, müxtəlif ölkələrin şirkətləri bizim təbii sərvətlərimizi talayır. COP29 bu mənfi tendensiyaların aradan qaldırılması məsələsini gündəmə gətirməklə mühüm rol oynadı. Azərbaycana təşəkkür edirəm ki, bizim problemlərimiz bu konfransda səsləndirildi".**

Bu sözləri müstəmləkəçilikdən əziyyət çəkən Nigeriyanın İqlim Savadlılığı və Ədalət üçün "DA News Media Advocacy" agentliyinin baş redaktoru Abdullahi Dare Akoqun söyləyib.



O bildirib ki, COP29 neokolonializmdən əziyyət çəkən xalqlar və icmalar üçün platforma rolu oynaya bilər: "Azərbaycan konfrans vasitəsilə bizim kimi icmaların səsini dünyaya çatdırmaq üçün böyük dəstək olur. Xüsusilə onu vurğulamaq istəyirəm ki, Bakıda təşkil olunan COP29 çərçivəsində iqlim dəyişmələrinin yaratdığı problemlər, maliyyə problemlərinin həlli məsələsi bizim diqqətimizi çəkdi".

## *Toqolu nümayəndə:* "COP29-da iştirak etdikdə gördüm ki, əsl təşkilatçılıq belə olur"

**"Bakı Təşəbbüs Qrupuna və Azərbaycana dəvət üçün təşəkkürümü bildirirəm. Ölkəmdəki siyasətə inamım qalmayıb. İkiillik fasilədən sonra COP29-da iştirak etdikdə gördüm ki, əsl təşkilatçılıq belə olur".**



Bu sözləri müstəmləkəçilikdən əziyyət çəkən Toqonun Sağlam Ətraf Mühit uğrunda Könüllülər Assosiasiyasının (AVES) icraçı direktoru Koku Selom Aqvativa söyləyib.

O qeyd edib ki, Bakı Təşəbbüs Qrupu (BTQ) vacib məsələlərə toxunur. AVES-in icraçı direktoru onların problemlərinin həlli istiqamətində BTQ ilə səmərəli əməkdaşlıq ediləcəyinə inandığını bildirib.

## *COP29-un amerikalı iştirakçısı:* "İnkişaf etməkdə olan ölkələrin bir çoxu iqlim dəyişikliyindən çox təsirlənir"

**"Hesab edirəm ki, bəzi problemlərin həllində kiçik addımlar ataraq böyük işlər görmək olar. Hazırda müzakirə edilən problem qlobal səviyyədə həll olunmalıdır. Biz iqlim dəyişmələri ilə mübarizəyə ayrılacaq maliyyənin davamlılıq üçün daha faydalı olan layihələrə necə sərf etmək barədə müzakirələr aparırıq".**



Bunu müsahibəsində COP29-da iştirak edən Amerikada yerləşən Antroposen İnstitutunun Data Elmi üzrə şöbəsinin direktoru Quvido Nunez deyib.

O bildirib ki, inkişaf etməkdə olan ölkələrin bir çoxu iqlim dəyişikliyindən çox təsirlənir və onların karbon emissiyalarını azaltmağa ehtiyacı yoxdur: "Həssas insanlara kömək etmək üçün infrastrukturları daha güclü və daha möhkəm etməliyik".

Tədbir iştirakçısı deyib ki, ölkəsinin siyasi administrasiyasında iqlim dəyişikliyinə inanmadıqlarını söyləyənlər var. O, bu fikirdə dəyişiklik etməyə çalışdıqlarını bildirib. "Bir alim kimi bu məsələ məni çox narahat edir. Onlar nüvə enerjisinə qarşı deyillər və düşünürlər ki, nüvə enerjisi bizim rifahımızı və həyat keyfiyyətimizi qurban vermədən karbon emissiyalarını azaltmağın bir yoludur. Çünki o, enerji təmin edə bilər. Həftənin yeddi günü, 24 saat günəş və külək enerjisinə ehtiyacımız var, amma eyni zamanda nüvəyə ehtiyacımız var. Gələcəyi görmək çətindir, amma düşünürəm ki, ən azı bu yolla ABŞ nüvə texnologiyasını təkmilləşdirməklə, onu ölkə daxilində və bütün dünyada yerləşdirməklə, iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verəcək", - deyə COP29-un iştirakçısı bildirib.

Amerikalı qonaq həmçinin Azərbaycan xalqının son dərəcə mehriban və nəzakətli xalq olduğunu da diqqətə çatdırıb. Əlavə edib ki, buradakı yeməklərdən həzz alıb. "Şəhərin memarlığı, həqiqətən, möhtəşəmdir. Heydər Əliyev Beynəlxalq Aeroportuna gələndə oranın necə gözəl olduğunu gördüm. Azərbaycana mehriban evsahibliyinə görə çox minnətdaram", - deyə o əlavə edib.

## *"CAB International"ın nümayəndəsi:* "COP29 xüsusilə inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət daşıyır"

**"COP29 və bu kimi tədbirlər, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət daşıyır. Bu ölkələr hələ də müasir texnologiyalara uyğunlaşmaq imkanını əldə edə bilməyiblər. Çünki onların maliyyə resurslarına çıxışı məhduddur. Ona görə də bu ölkələrin bərpası və dayanıqlı inkişafı üçün əlavə dəstək göstərilməlidir".**



Bu fikirləri müsahibəsində COP29-da iştirak edən "CAB International" (CABI) beynəlxalq qeyri-kommersiya təşkilatının nümayəndəsi Lydiah Gatere bildirib.

O, Azərbaycanın evsahibliyi etdiyi COP29 konfransı ilə bağlı təəssüratlarını da bölüşüb: "Mən COP29-un təşkilatçılığını çox yüksək qiymətləndirirəm və tədbirin belə kompakt bir ərazidə təşkil olunmasını xüsusilə təqdir edirəm. Həmçinin nəqliyyatın çox mükəmməl səviyyədə təşkil olunması məni heyran etdi. Bu tədbirdə iştirak edənlər üçün böyük rahatlıq yaradır. Bundan başqa, müxtəlif sektorların bir araya gətirilməsi, onların sıx əməkdaşlıq etməsi çox təqdirəlayiqdir. Bu gün ilk dəfə "yaşıl zona" ərazisinə baş çəkdim və gördüm ki, bu yer həm geniş, həm də estetik baxımdan çox gözəldir".

Əvvəllər üç dəfə COP tədbirlərində iştirak etdiyini vurğulayan Lydiah Gatere Bakı konfransının logistik üstünlüklərindən də söz açıb. "Bu, mənim Azərbaycana ilk səfərimdir və burada iştirak etdiyim COP29 tədbiri məni çox təsirləndirdi. Əsas diqqətimi çəkən cəhətlərdən biri məsafələrin çox yaxın olmasıdır. Keçən il Dubayda keçirilən tədbirdə bir yerdən digərinə getmək üçün xeyli vaxt tələb olunurdu. Burada isə məsafələrin qısalığı hərəkəti xeyli asanlaşdırır. Bundan əlavə, tədbir məkanında geniş yaşıl ərazilərin və su məkanlarının mövcudluğu mənə çox xoş təsir bağışladı".

Lydiah Gatere COP29-un uğurlu təşkilatçılığına görə Azərbaycana təşəkkür edərək, inkişaf etməkdə olan ölkələr üçün belə tədbirlərin nə qədər vacib olduğunu bir daha vurğulayıb.

## *Çikaqo Universitetinin tələbəsi:* "COP29 Azərbaycanın daha da tanıdılması üçün əla fürsət yaradır"

**"COP29 konfransının builki əsas mövzusu iqlim maliyyəsidir. Məqsəd inkişaf etməkdə olan ölkələrə, xüsusilə itki və zərərlərin azaldılması və adaptasiya sahələrində daha geniş iqlim maliyyəsi ayrılmasına dair razılaşmaların əldə edilməsidir. Hazırda hökumətlərin qeyri-sabitliyi nəzərə alındığında, bu ölkələr üçün yeni məqsədlərin müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir".**



Bu fikirləri COP29 çərçivəsində ölkəmizə gələn Çin nümayəndəsi, Çikaqo Universitetinin tələbəsi Ketrin verdiyi müsahibəsində vurğulayıb.

O, COP29-un təşkilatçılığı ilə bağlı fikirlərini belə ifadə edib: "Konfrans mükəmməl şəkildə təşkil olunub. Xüsusilə nəqliyyat marşrutlarının müasir və səmərəli təşkili iştirakçıların rahat şəkildə hərəkət etməsinə imkan verir. Bu sammit eyni zamanda Azərbaycanın beynəlxalq aləmdə daha geniş tanıdılması üçün əla bir fürsət yaradır. "yaşıl zona"dakı konfransın təşkili əcnəbi ziyarətçilər və yerli əhali arasında uğurlu bir inteqrasiya modelini təqdim edir, bu da müxtəlif mədəniyyətlərin və fərqli təcrübələrin harmoniyasını təmin edən önəmli bir yanaşmadır".

## *Engin Altan DÜZYATAN:* "Azərbaycan bu mühüm tədbiri qısa müddətdə yüksək səviyyədə təşkil edib"

**"Azərbaycanı təbrik etmək lazımdır, bu mühüm tədbiri çox qısa müddətdə yüksək səviyyədə təşkil edib və buraya gələn hər kəsi məmnun etməyi bacarıb".**



Bu sözləri türkiyəli məşhur aktyor Engin Altan Düzyatan deyib.

İqlim dəyişmələrinə qarşı mübarizənin çox vacib proses olduğunu söyləyən aktyor qeyd edib: "Çünki bilirik ki, gələn il ABŞ COP-dan və Paris Sazişindən ayrılmağı düşünür. Bu il xüsusilə ada ölkələrinin ehtiyacı olan məbləğ üçün danışıqlar davam edir. İqlim dəyişmələrinin təsirlərini dünyanın müxtəlif yerlərində hiss edirik. Amma ən böyük çətinliyi, əslində, ada ölkələri çəkir. Çünki dəniz səviyyəsinin bir metr qalxması ilə ölkələr yoxolma təhlükəsi ilə üz-üzədir. Ümid edirəm ki, bu danışıqların nəticəsi yaxşı olacaq, ada dövlətləri və digər ölkələr üçün lazımi vəsait tapılacaq. Əlbəttə ki, burada dövlətlər arasında da mühüm danışıqlar aparılır. Bu danışıqların yaxşı keçməsini və hər kəsi məmnun edəcək nəticələrlə başa çatmasını arzulayıram. Burada vətəndaşlar və dövlətlər olaraq bizim də üzərimizə bir sıra vəzifələr düşür. Fərdi şəxslər olaraq əlimizdən gələni etməliyik. Dövlətlər də əllərindən gələni etdiyi müddətdə ümidvaram ki, bu prosesi daha da yavaşladıb və problemləri aradan qaldırmaq istiqamətində hamımız birlikdə addım atacağıq".





















COP29 Baku Azerbaijan